

Bu gün "Cinema Plus"da "Əli və Nino" filminin qəhrəmanları ilə mətbuat konfransı keçirilib.

" Qafqazinfo " xəbər verir ki, tədbirə filmin yaradıcı heyəti qatılıb. Azərbaycandan isə aktrisa Mehriban Zəki iştirak edib. Filmin baş qəhrəmanı, Hollivud ulduzu Maria Valverde Azərbaycana aşiq olduğunu bildirib:

"Mən gürcü qadın obrazını canlandırmışam. Əlbəttə, real həyatda azərbaycanlı kişini sevməmişəm, ancaq hamımız Azərbaycana aşiq olduq. Bakıdan növbəti dəfə təklif alsam sevinərəm".

Filmin digər ulduzu Numan Acar isə Xınalıq kəndini çox sevdiyini bildirib: "Film çəkilişi zamanı çox şey yadımda qalıb. Ssenaristim zəng vurub dedi ki, 2 metr Xınalığa qar yağıb. Ancaq bu hadisə xüsusi yadımda qalıb".

Məbuat konfransında əsərin baş qəhrəmanı, Əli Xan obrazını canlandıran Adam Bakrinin Bakıya gəlməməyi barədə məlumat verilib. Qeyd olunub ki, aktyorun "green kart"ı ilə bağlı problemi olub, Bakıya gələ bilməyib.